**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MƏHƏMMƏD SOLTAN OĞLU CƏBRAYILOV**

# BİOSFER PROSESLƏRİNİN DİNAMİKASINDA İNSANIN YERİ VƏ ROLU (SOSİAL-FƏLSƏFİ TƏHLİL)

**İxtisas: 7207.01 – Sosial fəlsəfə**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

Dissertasiya işi Fəlsəfə və Hüquq İnstitutunun «Qloballaşma və informasiya cəmiyyətinin fəlsəfi problemləri» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Ağayar Məhəmməd oğlu Şükürov**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Elmi məsləhətçi:** **Rəna Rza qızı Mirzəzadə**
fəlsəfə üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Azər Xoşbəxt oğlu Mustafayev**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Əyyub Sevdim oğlu Kərimov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Bakı Dövlət Universiteti (Fəlsəfə kafedrası)

Müdafiə «___» ________ 2015-ci ildə saat_____ da AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun nəzdindəki fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, Az-1143, H.Cavid prospekti 115, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» «___________» 2015-ci ildə göndərilmişdir.

**Fəlsəfə və Hüquq İnstitutunun**
**nəzdindəki D.01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru** **Sevinc Arif qızı Həsənova**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Müasir dövr insan və biosfer münasibətlərindən yaranan ekoloji böhran dərin problemlərlə xarakterizə olunur və həlli mürəkkəb olan qlobal problemlərin aradan qaldırılmasında müxtəlif yolların axtarışını zəruri edir. Biosferdə mövcud problemlərin nəticələrini onun hüdudlarından kənarda da müşahidə etmək mümkündür. Bu isə o deməkdir ki, insanın məskunlaşmadığı ərazilərdə belə onun yaratdığı problemin izlərini görmək olar.

Hal-hazırda biosferin yaşaması və mövcudluğu geoloji və fiziki proseslərdən çox, müasir insanın biosferdə gedən proseslərə münasibətindən asılı olması ilə xarakterizə olunaraq, müxtəlif sualların meydana gəlməsinə səbəb olur. Məsələn, biosfer hansı proseslərin bioloji məhsuludur, insanın bu proseslərin içərisində tarixi yeri haradadır, biosferin insandan asılılığının həddini müəyyənləşdirmək mümkündürmü, əgər bu hədd müəyyənləşərsə, o zaman bəşəriyyət bu problemə hansı yeni keyfiyyətlər gətirəcək, biosferdən davamlı istismar olunan bioloji resursların hamısı insanın zəruri ehtiyacları üçündürmü və s. kimi suallar bu gün özünə ictimai elmlərdə-fəlsəfədə də yeni metodoloji yanaşmalardan irəli gələn cavablar axtarır. Məhz bu baxımdan da araşdırılan mövzunun öyrənilməsi zəruri əhəmiyyət kəsb edir. Diqqətə çatdıraq ki, mövzunun aktuallığı Azərbaycan Respublikasının Konstitutsiyasının 39-cu maddəsinin II bölümündə "Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq hüququ vardır"[1] kimi təsbit olunmuşdur.

Biomüxtəlifliyin, təbiətin, vəhşi heyvanların və genetik resursların mühafizəsi, cəmiyyət, xüsusilə gələcək nəsillər üçün əhəmiyyəti şəksizdir, çünki hal-hazırda bu məsələlərin, lokal və milli səviyyələrdə həlli heç də qənaətbəxş deyildir. Hal-hazırda BMT-nin vasitəçiliyi ilə bu sahədə beynəlxalq səviyyədə xeyli konvensiya qəbul edilmiş və Azərbaycan bu konvensiyalara qoşularaq, götürdüyü öhdəlikləri yerinə yetirməsi baxımından digər dövlətlərə özünü «Ekomodel» (ekoloji cəhətdən inkişaf modeli) bir ölkə kimi göstərə bilmişdir.

Məlumdur ki, dünyanın hər bir ölkəsi öz ekosistemi, landşaftı, bir sözlə, təkrarsızlığı və özünəməxsusluğu ilə səciyyələnir. Onu da qeyd

[1] Azərbaycan Respublikasının Konstitutsiyası, Yeni redaksiyada, Bakı, Qanun nəşriyyatı, 2009 , s.15.

etmək lazımdır ki, dünyada qloballaşma–qarşısı alınmaz bir prosesə çevrilməkdədir. Məhz bu şərtlər daxilində özünəməxsusluğu qoruyub saxlamaq, eyni zamanda beynəlxalq proseslərdə iştirak etmək işi həddindən artıq çətin və zəruri məsələdir. Yaşadığımız üçüncü minilliyin başlanğıcında biosferə antropogen təzyiqin xeyli artması, planetdə ekoloji tarazlığın pozulması, biomüxtəlifliyin azalması, Yer kürəsində qlobal istiləşmənin fakta çevrilməsi, nəticədə bəşəriyyətin davamı olan gələcək nəsilin bir bioloji varlıq kimi məhv olmaq təhlükəsi kimi məsələlər mövzunun bir daha aktuallığını göstərir. Bu baxımdan BMT-nin təşəbbüsü ilə 1992-ci ilin iyun ayında Rio-de-Janeyroda 150-dən artıq ölkə bioloji müxtəliflik haqqında Konvensiyanı imzalayaraq, ölkələrin əhalisinin, təbii müxtəlifliyinin qorunub saxlanılması məqsədi ilə fəal hərəkətlərə keçməyə hazır olduqlarını təsdiqlədilər. Azərbaycan 2000-ci ilin mart ayında bu konvensiyaya qoşulmuşdur. Respublikada biomüxtəlifliyin qorunub saxlanılması, onun ünsürlərinin sabit şəkildə istifadə edilməsi, genetik resursların istifadə edilməsi ilə bağlı ədalətli şəkildə birgə faydalanması Azərbaycan dövlətinin ekoloji siyasətidir. Respublikada şimal-qərb zonası üçün əsl təhlükə mənbəyi olan Qəbələ RLS-nin fəaliyyətinin dayandırılması və s. bu kimi məsələlər də tədqiqat işində sosial fəlsəfi aspektdən öyrənilmişdir.

Ulu Öndər Heydər Əliyevin də söylədiyi: “Yer üzərindəki təbii sərvətlər təbiət, ilahi tərəfindən yaradılıbdır. Ancaq torpağın, yerin, kürreyi-ərzin üzərində yüz illərlə qurulanlar insanların zəhməti, iradəsi, zəkası, onların əlləri ilə yaradılıbdır”[2] ifadəsindəki məna, insanın min illərlə biosferdəki fəaliyyətinin dərin mahiyyətini özündə əks etdirir.

Bütün bu qeyd olunanların məntiqi yekunu kimi prezident İlham Əliyevin 2010-cu ili “Ekologiya ili” elan etməsi və dövlətin müvafiq strukturlarının ekoloji layihələrə cəlb olunması Azərbaycanda görülən tədbirlərin bir hissəsidir. Azərbaycanda biosfer resurslarının, o cümlədən, biomüxtəlifliyin qorunmasında ekoloji layihələrdə beynəlxalq ekoloji təşkilatlarla fəal əməkdaşlıq edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın yeni qlobal gənclər ekoloji kampaniyası “Ətraf mühitin müdafiəsi fəaliyyətində beynəlxalq dialoq”u (International Dialogue on Environmental Action - İDEA) təsis edərək geniş fəaliyyəti və

[2] Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər, Azərbaycan Universiteti nəşriyyatı, Bakı.:1997, s. 52.

biomüxtəlifliyin qorunması ilə bağlı problemlərin araşdırılmasıda mövzunun aktuallığını şərtləndirən amillərdəndir.

Qeyd etməliyik ki, bioresursların bərpası və ekoloji problemlərin həlli məqsədi ilə həyata keçirilən tədbirlər Azərbaycanın «işğal olunmuş ərazilərini» əhatə edə bilmir və ekoloji böhran getdikcə dərinləşir, nəticədə biosferin biomüxtəlifliyini təşkil edən müxtəlif təbii landşaftların məhv olması təhlükəsi yaranır ki, tədqiqat işində bu mövzuya da toxunulmuşdur.

Beləliklə, tədqiqatda aşağıdakı məsələlərin öyrənilməsinə cəhd edilmişdir:

Birincisi; müxtəlif sivilizasiyaların yaranması və inkişafında biosferin imkanlarının tarixi-fəlsəfi və faktoloji əsaslarla araşdırılması (bu sosial-fəlsəfi təhlil bizə o imkanı verəcək ki, tarixi minilliklər boyu biosferin insan tərəfindən tədricən dəyişdirilməsinin və istismarının mahiyyətində nə dayandığını müəyyənləşdirə bilək) .

İkincisi; biosferin tamlığını təşkil edən ekosistemlərin daxilində canlı aləmin inkişafına, yerdəyişməsinə və növlərin sıradan çıxmasına təsir edən təbii qanunlarla yanaşı ictimai qanunların da, biosferdə əmələ gətirdiyi, antropogen fəaliyyətin çoxtərəfli cəhətlərinin sosial-fəlsəfi aspektdə açıqlanması.

Üçüncüsü; biosferin imkanlarının məhdud olması ilə bioresursların cəmiyyət tərəfindən mənimsənilməsi, biosferin insanların yaşamasının ümumdünya təbii-tarixi prosesinin ən mühüm şərti kimi nəzərə alınması, dünya xalqları və ölkələri arasında obyektiv ekoloji qarşılıqlı asılılığın yaranması, təbii ehtiyatların qeyri-səmərəli istifadə olunması, ekosistemlərin deqradasiyasının və bu kimi məsələlərin multidistiplinar səviyyədə sosial-fəlsəfi cəhətdən tədqiqat işində öyrənilməsidir.

Dördüncüsü; Metsamor AES-in nüvə tullantılarının Azərbaycanın işğal olunmuş ərazilərində basdırılması, qəsdən məhv edilmiş ekosistemlərin ekoloji vəziyyəti, Ermənistan dövlətinin "Dağlıq Qarabağda" apardığı ekosid siyasətində antropogen təzyiqin səviyyə və dinamikasını, qloballaşma şəraitinin verdiyi imkanlar çərçivəsində sosial-fəlsəfi cəhətdən tədqiqat işində əsaslandırılmasıdır.

Beləliklə, dissertasiya işinin aktuallığı həm də onunla bağlıdır ki, ekosistemin və ümumiyyətlə, biosferin sabitliyinin pozulması, bioresursların tükənməsi, müxtəlif növlərin sıradan çıxması ilə yanaşı cəmiyyətin sosial-mədəni həyatının inkişafına lazım olan zəruri ehtiyacların ödənilməsində müəyyən hədlərin müəyyənləşməsi müxtəlif elm sahələrinin hədəfinə çevrilir ki, bu da mövzunun aktual əhəmiyyət daşıdığını göstərir.

**Problemin işlənmə dərəcəsi.** Biosferdə baş verən proseslərlə bağlı elmi tədqiqatların yazılmasına XX əsrin son onilliklərdə başlanılmışdır. Nəzərə yetirək ki, problemin bu və ya digər istiqamətləri tədqiqatçılar tərəfindən öyrənilsə də, mövzu sosial-fəlsəfi tədqiqata ilk dəfə cəlb olunur.

Problemlə bağlı aparılan tədqiqatları iki qrupa ayırmaq olar. Birinci qrupa biosferdə gedən maddələr mübadiləsininin coğrafi məkan aspektində mahiyyətinin araşdırılması. İkinci qrupa isə Elmi Texniki Tərəqqinin biosferdə yaratdığı dəyişikliklərin, yeni zaman və məkan daxilində müxtəlif səbəblərinin öyrənilməsi daxildir. Bütün bu tədqiqatları araşdıraraq, məhz mövzunun sosial-fəlsəfi məzmunda öyrənilməsinə cəhd etmişik. Həmçinin mövzuya dair Qərb, Rusiya, Türkiyə, MDB-ölkələrində müxtəlif əsərlər və monoqrafiyalar yazılmışdır ki, tədqiqat zamanı həmin ədəbiyyatlara müraciət olunmuşdur.

Rusiya və MDB-ölkələri müəlliflərindən V.İ.Vernadski, M. Biqon, A.E.Vorobyov, N.A.Voronkov, B.A.Voronoviç, N.N. Moiseyev, Y.M. Lopuxinin əsərləri tədqiqat işi üçün mənbə rolunu oynamışdır[3].

Qruplaşdırdığımız tədqiqatçıların əsərlərində biosferin müxtəlif aspektləri nəzərdən keçirilir. Məhz bu baxımdan qeyd olunan müəlliflərin əsərlərinin digər müəlliflərin tədqiqat işləri ilə fərqi ondadır ki, bu işlərdə biosferdə gedən maddələr mübadiləsinin coğrafi məkan aspektində araşdırılmasına diqqət yetirilir.

İşin tədqiqi zamanı qərb müəlliflərindən R.Robertson, C.Soros, E.Toffler, L.Volpertin əsərlərindən tədqiqatın III fəslində istifadə olunmuşdur[4].

Türkiyə elmi araşdırmaçılarından olan H.Ertürk, F.Berkes, G.Bozkurt, Ö.Kuyaş, Ö.Yasemin, R.Rupp, R.Keleş, M.Kışlalıoğlu və b. insan və ətraf mühit mövzusunda tədqiqat işləri aparmışdılar[5].

---

[3] Вернадский В. И. Философские мысли натуралиста. М.: Наука, 1988; Бигон М., Харпер Дж., Таунсенд К. Биосфер. Особи, популяции и сообщества. М.: Мир, 2005; Воробьев А.Е, Пучков Л. А. Человек и биосфера глобальное изменение климата. М.: 2006; Воронков Н. А. Экология Общая социальная, прикладная. М.: Агар, 2006; Воронович В.А. Философские проблемы взаимодействия общества и природы. М.: Мысль, 1982; Моисеев Н.Н. Человек и ноосфера. М.: Молодая гвардия, 2008; Лопухин Ю.М. Биоэтика в России. М.:2001.

[4] R. Robertson. Globalization. University of Aberdeen. 1992; Сорос Д. Тезисы о глобальизации. Вестник Европы. 2001; E.Тоффлер. Третья волна. М.:1999; Volpert L. Bilim sağduyuya karşı. Ankara.: 2006.

[5] Ertürk H. Çevre bilimlerine giriş. Bursa: Uludağ Universiteti, 1996; Fikret Berkes. Ekoloji ve çevre bilimleri. İstanbul: Remzi kitabevi, 2003; Güvenç Bozkurt. İnsan ve kültür.

B.Akarsunun «İnsan və ətraf», M. Kişlaloglunun «Ekologiya və ətraf elmləri», R.Keleşin «İnsan- ətraf -cəmiyyət», K.Kemalın «Ətraf və insan» və başqalarının əsərlərində ekologiya və ətraf mühitdə baş verən proseslər, habelə insanın ətraf mühitə olan təsirləri tədqiq olunur. Qeyd olunan əsərlərdə insan və ətraf aləmin münasibətlərindən meydana çıxan ekoloji böhranın durmadan genişlənməsi dərin problemlərlə xarakterizə olunur və həlli mürəkkəb olan qlobal problemlərin aradan qaldırılmasının müxtəlif yolları araşdırılır .

Azərbaycanda ekoloji problemləri ilk dəfə elmi ictimaiyyətin diqqətinə çatdıran H.Əliyevin «Həyəcan təbili», H.Əliyev və X.Həsənovun «Təbiətin keşiyində», B.Budaqovun «Dözümlü, dözümsüz təbiət», B.Budaqovun «Təbiəti qoruyaq», Ə.Əsgərov və H.Mahmudovun «İnsan və təbiət», H.Mahmudovun «Təbii ehtiyatların istifadəsi və mühafizəsi», Q.Məmmədovun «Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi», S.Məmmədəliyevanın «Mədəniyyət, ekologiya, təhsil» əsərlərində təbii ehtiyatların azalması və bu istiqamətdə olan problemlər araşdırılır[6].

Respublikamızda biosfer və insan problemi bir neçə ildir ki, tədqiqat probleminə çevrilmişdir. Müasir Azərbaycan fəlsəfi fikrində ekologiya ilə bağlı müəyyən tədqiqatlar aparılmasına baxmayaraq, miqyasına görə bu görülmüş işlər olduqca azdır. Biosferin ekoloji tərəflərinin sosial-fəlsəfi aspektlərinin nəzərdən keçirildiyi əsərlər içərisində A.M.Şükürovun «Müasir ekoloji şərait və ideoloji mübarizə», «Təbiət və cəmiyyət: fəlakətin astanasında», D.Hacıyev və Y.Hidayətovun «İnsan ekologiyası və biosferin çirklənməsi», S.Hüseynovun «Davamlı inkişaf konsepsiyası və qloballaşma prosesi», Z.Ağayevanın «Ekoloji siyasət və onun sosial- fəlsəfi aspektləri», A.Qurbanovun «Sivilizasiyanın ekoloji perspektivləri» və bir sıra digər fundamental monoqrafiya və elmi məqalələri sosial-fəlsəfi

---

İstanbul: Remzi kitabevi,1996; Örş Kuyaş. Habitat ilinin tarihçesi . İstanbul: Bilim ve Teknik, 1996; Özdek Yasemin. İnsan hakkı olarak çevre hakkı, Ankara: Todaie, 1993; Rebecca Rupp. Dört element. İstanbul: Cağaloğlu, 2005; Ruşen Keleş. İnsan Çevre toplum. Ankara: İmge Kitabevi, 1997; Bedia Akarsu. "İnsan ve Çevre", Cogito, İstanbul: Yapı Kredit, 1994; Ruşen Keleş. İnsan Çevre toplum. Ankara: İmge Kitabevi, 1997; Kartal Kemal. Çevre ve insan. Ankara: Todaie yayaınları, 1993; Mine Kışlaloğlu, Fikret Berkes. Ekoloji ve çevre bilimleri. Remzi kitabevi. 2005.

[6] Əliyev H. Həyəcan təbili. B.: Azərnəşr. 1982; Budaqov B. Dözümlü, dözümsüz təbiət. B.: 1990; Əsgərov Ə., Mahmudov H. İnsan və təbiət. B.: 1992; Mahmudov H. Təbii ehtiyatların istifadəsi və mühafizəsi. B.:1999;. Məmmədov Q. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi. B.: Elm. 1998.

baxımdan olduqca əhəmiyyətlidir[7].

Müxtəlif aspektlərdən yanaşmaq və işin əhatəli araşdırılması baxımından Azərbaycan müəllifləri içərisində R.Mehdiyevin, İ.Məmmədzadənin, İ.Rüstəmovun, A.Mustafayevin, Ə.Abbasovun, K.Əzimovun, Ə.Məmmədovun, R.Uluselin, R.Mirzəzadənin əsər və elmi məqalələrinə nəzər yetirilmişdir[8].

Dissertasiya işi hazırlanarkən ilk növbədə Azərbaycan Respublikasının qoşulduğu Beynəlxalq Ekoloji Konvensiyalar və Azərbaycan Respublikası Prezidentinin biosferin qorunması ilə bağlı verdiyi qərarlar nəzərə alınmış, həmçinin rəsmi dövlət sənədləri, milli qanunvericilik sahəsində olan ekoloji qanunlar, fəlsəfi lüğət, ensiklopediya və sözlüklərdən istifadə edilmişdir.

Mövcud olan ədəbiyyatın qeyd olunan istiqamətlərdə təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, biosfer və insan probleminin araşdırılması baxımından müxtəlif cəhdlər edilmiş, müəyyən tədqiqat istiqamətləri müəyyənləşdirilmiş, zəngin faktiki materialların ümumiləşdirilməsi təmin edilmişdir. Lakin nəzərə almaq lazımdır ki, bir çox tədqiqatçıların əsərlərində biosfer və insan münasibətlərinin genezisi əsaslandırılmadan ümumi mülahizələr söylənilmiş, əslində tarixi obyektiv qanunauyğunluq prinsipinin tələbləri pozulmuşdur. Bundan əlavə, biosfer və insan münasibətlərinə dair yeni məqamlar və faktlar ortaya çıxır ki, bunların da sosial-fəlsəfi aspektdə təhlilinə və ümumiləşdirilməsinə tələbat yaranır. Hazırkı dissertasiya işi həmin tələbatın dərk edilməsi ilə bağlı bir təşəbbüs kimi dəyərləndirilə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini biosfer və onda baş verən proseslərin dinamikası, predmetini isə insanın biosferdəki fəaliyyətinin sosial–fəlsəfi xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Araşdırılan problemin mürəkkəbliyini və çoxcəhətliliyini nəzərə alaraq dissertasiyada qarşıya qoyulan məqsəd biosfer və insan münasibətlərini sosial-fəlsəfi aspektdə

---

[7] Şükürov A. Müasir ekoloji şərait və ideoloji mübarizə. B.: 1985; Şükürov A. Təbiət və cəmiyyət: fəlakətin astanasında. B.: Azərnəşr. 1992.; Hacıyev D., Hidayətov Y. İnsan ekologiyası və biosferin çirklənməsi. B.: Təbib. 1994; Hüseynov S. Davamlı inkişaf konsepsiyası və qloballaşma prosesi. Qloballaşma və Azərbaycan. Elmi praktik konfransın materialları. B.: 2002; Ağayeva Z. Ekoloji siyasət və onun sosial-fəlsəfi aspektləri. B.: Elm, 2000; Qurbanov A. Sivilizasiyanın ekoloji perspektivləri, tarixi prosesdə ekoloji amil. B.: «ELM» nəşriyyatı, 2014.

[8] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B.: 2005; Мамед-заде И. Введение в этику. Баку, 2004; 2005; Rüstəmov İ. XX əsrin əvvəllərində Azərbaycanda təbii, elmi və fəlsəfi fikrin vəhdəti. B.: 1992; Məmmədəliyeva S. Mədəniyyət, ekologiya, təhsil. B.: Səda.1999. Xəlilov R. Mədəniyyət və Texnosivilizasiya. Bakı.: 2003.

hərtərəfli araşdırmaqdır. Bu məqsəd aşağıdakı vəzifələrin yerinə yetirilməsində konkretləşdirilir:

- biosferin tarixi təşəkkülünə və inkişafına təsir edən prosesi sosial-fəlsəfi kontekstdə izləmək;
- biosfer-insan münasibətlərini, təbii tarixi şərtlərini insanlıq nöqteyi nəzərindən əsaslandırmaq;
- elmi ideyaların tətbiq sahələrinin biosferdə yeni geoloji güc kimi meydana gəlməsinin funksional təhlili;
- antropogen amilin biosferdə yaratdığı yeni prosesin sosial-fəlsəfi mahiyyətini təhlil etmək;
- bioetik dəyərlərin, biosferin mühafizəsində təsiredici gücə çevrilmə imkanlarını sosial-fəlsəfi aspektdə araşdırmaq.
- qloballaşma və onun biosferdə yaratdığı prosesləri bəşəriyyətin vahidliyi mövqeyindən sosial-fəlsəfi istiqamətdə əsaslandırmağa səy göstərmək;
- biosferin tərkib hissəsi olan Azərbaycanın işğal olunmuş ərazilərində ki, bioresursların məhv edilməsində işğalçı Ermənistanın apardığı ekosid siyasətinin sosial-fəlsəfi mahiyyətini açmaq.

**Tədqiqatın elmi yeniliyi.** İşin elmi yeniliyi tədqiqata cəlb olunan problemlərin Azərbaycanda fəlsəfə elmində ilk dəfə sosial-fəlsəfi aspektdə açılması, onların sistemli təhlili ilə və konkret olaraq aşağıdakı məqamlarda ifadə olunur:

- biosferin inkişafında təbii tarixi şərtlər nəzərə alınmaqla, bəşəriyyətin ibtidai dövrdən müasir dövrə qədər ki, mərhələlərində baş verən ictimai qanunlarla təbii qanunlar arasında yaranan ziddiyyətlərin müasir Azərbaycan fəlsəfəsində ilk dəfə əsas qanunauyğunluğun səbəblərinin sosial fəlsəfi təhlili verilmişdir;
- biosfer-insan münasibətlərində meydana gələn münaqişənin səbəbləri ictimai qanunların obyektiv inkişafı ilə əlaqələndirilmiş və insanın təbiətində tarixən qərarlaşmış dağıdıcılıq mövqeyi konkret faktlarla əsaslandırılmış, həmin xüsusiyyətlərin respublikada ilk dəfə sosial-fəlsəfi aspektdə təhlili verilmişdir;
- elmi ideyaların inkişafının tətbiq sahələrinin nəticələrini, digər elm sahələrinin tələbləri (multidistiplinar əlaqə) ilə uzlaşdırmadan istehsala yönəldilməsində biosfer resurslarının məhdudluğunun nəzərə alınmaması məsələləri və təbii mühitdə yaranan yeni ekoloji vəziyyət sosial-fəlsəfi kontekstdə açıqlanmışır;

- Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf ərazilərinin təbii resursları, biomüxtəlifliyi işğaldan əvvəlki dövrlə müqayisəsi verilərək, onun müasir vəziyyətinin müxtəlif Beynəlxalq Təşkilatların sənədlərində fakt olaraq öz əksini tapması fəlsəfi baxımından dəyərləndirilərək, müəyyən tövsiyələr göstərilmişdir;

- müasir Azərbaycanın ekoloji siyasəti qoşulduğu beynəlxalq konvensiyaların tələblərindən irəli gələn vəzifələri səciyyələndirilərək, onun qloballaşma şəraitində ciddi surətdə öyrənilməyə layiq "Ekomodel" nümunə olmasının fəlsəfəsi işıqlandırılmışdır.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyada mövzu ilə bağlı respublikanın və xarici ölkə alimlərinin araşdırdığı tədqiqatlara nəzəri-metodoloji əsas kimi istinad edilmişdir. Problemin araşdırılmasında mühüm mənbələrdən biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları, məruzə, çıxış və müsahibələri, rəsmi dövlət sənədləri, Beynəlxalq Təşkilatların konvensiyaları, habelə dövri mətbuatda və internet saytlarında öz əksini tapan müxtəlif materiallar olmuşdur. Tədqiqatın metodoloji əsasını tarixiliklə məntiqiliyin, mücərrədliklə konkretliyin vəhdəti və ümumiyyətlə problemə kompleks sosial-fəlsəfi yanaşma prinsipləri təşkil edir. Dissertasiya işində tarixi və məntiqi, müqayisəli, deduktiv, problemə sistemli yanaşma metodlarına geniş yer verilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada qoyulan məsələlərin sosial-fəlsəfi təhlili aşağıdakı hallarda öz tətbiqini və köməyini göstərə bilər: analoji elmi tədqiqatların aparılmasında; respublika ərazisində biomüxtəlifliyin və biosfer resurslarının qorunmasında; beynəlxalq təşkilatlar qarşısında işğal olunmuş ərazilərin ekosisteminin məhv olma təhlükəsinin aradan qaldırılmasında; əhalinin nəzərdən keçirilən problemlər dairəsində məlumatlandırılmasında; yeniyetmələrin və gənclərin bioetik dəyərlər ruhunda tərbiyəsi işində; ali və orta ixtisas məktəblərində bioetika və ekoetika fənlərinin tədrisində və həmin fənlər üzrə müəyyən ixtisas kurslarının, referatların, buraxılış işlərinin, dərs vəsaitlərinin və metodik tövsiyələrin hazırlanmasında.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun keçmiş «Qloballaşma və informasiya cəmiyyətinin fəlsəfi problemləri» şöbəsində yerinə yetirilmiş, 2011-ci ildə həmin şöbədə müzakirə olunmuş və müdafiəyə təqdim edilmişdir. İşin əsas müddəaları müəllifin 20-dən çox elmi məqalə və tezisində (o cümlədən xaricdə çap olunmuş 3 məqalədə)

beynəlxalq və ümumrespublika elmi-nəzəri konfranslarındakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, elmi-nəzəri və praktik əhəmiyyəti qeyd olunur, işin işlənmə dərəcəsi, məqsəd və vəzifələri açıqlanır, müəllifin əldə etdiyi nəticələr sadalanır, dissertasiyanın aprobasiyası və strukturu işıqlandırılır.

**"Biosferin təbiət-cəmiyyət sistemində vahid proses kimi əsas təzahür xüsusiyyətləri"** adlı birinci fəsildə biosfer anlayışının məzmunu, onda gedən fiziki və bioloji proseslərin mahiyyəti sosial-fəlsəfi aspektdən təhlil olunur.

Birinci fəslin **"Biosferin inkişafında əsas qanunauyğunluqlar və biosfer anlayışının sosial-fəlsəfi mahiyyəti"** adlı birinci yarımfəslində biosferə sosial-fəlsəfi kontekstdə tərif verilərək biosfer anlayışını ifadə edən prosesin iştirakçısı olan canlı maddələrin əlaqə və keyfiyyət xassələri nəzərdən keçirilmişdi. Belə ki, A.Varabyov «İnsan və biosfer» əsərində qeyd edir ki, «biosferə çoxlu tariflər verilsə də, V.Vernadskinin tərifi onların içərisində xüsusi yer tutur. O, biosfer dedikdə canlı orqanizmlərin yaşadığı yer örtüyünü nəzərdə tuturdu».[9]

V.Vernadskinin biosferə verdiyi təriflə razılaşsaq, o zaman belə bir nəticə hasil olur ki, «biosfer canlı orqanizmlərin yaşadığı təbəqədir». Artıq elmə məlumdur ki, canlı orqanizmlər biri digərinin hesabına yaşayan qida zəncirinin əsas halqalarını təşkil edirlər. Onda biz digər bir faktı da qəbul etməliyik ki, biosfer dedikdə bu təbəqədə yaşayan canlı materiyanın statistikasını yox, onların əlaqə vasitələrini, necə yerləşməsini, yerdəyişməsinin və antropogen təsirin sosial-fəlsəfi qanunauyğunluqlarını nəzərə almalıyıq. Məhz bu baxımdan biosferə veriləcək tərif, onda gedən maddələr dövranını ifadə etmək baxımından məqbul sayıla bilər. **«Biosfer daim hərəkətli, biri digəri ilə əlaqədə olan canlı orqanizmlərin yaşadığı təbəqədir»**.

İşdə açıqlanır ki, biosfer haqqında müasir təsəvvürlər bəşəriyyətin ətraf mühit və onu əhatə edən dünyanın dərk etməsi səviyyəsini əks etdirir.

---

[9] Воробьев А.Е, Пучков Л. А. Человек и биосфера глобальное изменение климата. М.: 2006. 32 с.

Bir çox tədqiqatçıların fikrincə, bu anlayış Yerin təbiətinin dərin mahiyyətini, onun müəyyən məkanında daha geniş və tam əks etdirir. Tədqiqatda biosferin canlı aləmin və ümumilikdə həyatın yaşamasının ən spesifik xüsusiyyətini özündə şərtləndirən və onun inkişafını təmin edən mühüm bir təbəqə olmasının fəlsəfi əsasları göstərilir.

Bu yarımfəsildə XIX əsrin birinci yarısındakı biosfer haqqında təsəvvürlərin mahiyyəti verilərək, canlı materiyanın bir təbəqə kimi düşünülməsi baxımından inkişafı göstərilir, bu ideyaya sistem kimi yanaşmaq özündən əvvəlki dövrlə müqayisədə biosfer haqqındakı ümumi baxışların yalnız teoloji baxışlarla məhdudlaşmasının sosial-fəlsəfi mahiyyəti açıqlanır. Buradan görünür ki, biosfer təkcə təbiət elmlərinin məşğul olduğu sahə deyil, bununla əlaqəsi olan müxtəlif elm sahələri üçün eyni zamanda sosial-fəlsəfi elmlər üçün də kifayət qədər tədqiq olunması üçün material verir.

İşdə daha sonra açıqlanır ki, biosfer təkcə insan amili aspektindən deyil, öz-özünü təşkil edən sistem kimi də nəzərdən keçirilməlidir. Beləliklə, biosferin hansı təbii sistemlərdən təşkil olunduğuna diqqət yetirdikdə, məlum olur ki, biosfer özü təbii sistem olmaqla yanaşı, həm də dinamik sistemdir. Məhz bu baxımdan onda daimi olaraq maddələrin və enerjinin mübadiləsi gedir. Müəllifin çıxardığı nəticəyə görə, biosferin bir sistem kimi formalaşmasında iki əsas çıxış nöqtəsi vardır: tarixi təkamül prosesinin istənilən anında biosferin vəziyyəti və dinamikası.

Tədqiqat işində bildirilir ki, yalnız yeni elmi-fəlsəfi ideyalar XXI əsrdə bəşəriyyətin biosferin daxilindəki oynadığı rolun dərin əhəmiyyət kəsb edən başqa bir xüsusiyyətini, planet xarakterli bu sosial hadisəni üzə çıxara bilər. Məhz bu baxımdan yaşadığımız hadisəni elmi baxımdan iki müxtəlif nöqteyi-nəzərdən öyrənə bilərik: bir tərəfdən, biosferdə gedən proseslərin qloballaşmaya təsir edən amil kimi; digər tərəfdən yer kürəsinin vahidliyinin dərk olunmasında bioresursların məhdudluğu nöqteyi-nəzərindən yanaşılması kimi. Bu hadisələrin sıx və qırılmaz bağlılığı bəşəriyyət qarşısında heç vaxt bu qədər açıq-aydın olmamışdır. Biz elə bir dövrdə yaşayırıq ki, qloballaşmanı yaradan amillər ekoloji aspektdə bizim qarşımızda elmi baxımdan tam aydınlığı ilə açılır və bu proseslər insanın biosferə münasibətinin doğurduğu hadisə kimi üzə çıxır.

**“Biosferin inkişaf mərhələlərinin sosio-fəlsəfi təhlili”** adlı ikinci yarımfəsildə ilk dəfə canlı aləmin inkişaf nəzəriyyəsi qədim yunan filosofları tərəfindən irəli sürüldüyü bildirilir və canlı aləmin inkişafı,

biosfer və insan münasibətlərində mövcud olan əlaqələr, onların hamı tərəfindən sezilməyən tərəfləri məhz fəlsəfənin zəruri problemi olduğu qeyd edilir.

Dissertasiyada Ramiz Mehdiyevin fikirlərindən sitat gətirilərək göstərilir: "Müasir insanın təbiətə münasibətini, qərbdə təbiətşünaslığın və texnikanın mövcud səviyyəsini mümkün etmiş ümümi ekoloji məqsədləri müəyyən edən mənəvi paradiqmaların mənbəyi olmuşdur"[10]

Burada bildirilir ki, V.Vernadski yanlış olaraq belə bir fikir formalaşdırmağa çalışmışdır ki, «fəlsəfə ilə məşğul olanlar, insanın mövcud olduğu dövrdə baş verən uzunmüddətli geoloji dəyişikliklərin yaranmasını öyrənə bilməzlər». O, belə bir qənaətə gəlmişdir ki, «iqlimin dəyişməsi, orqanizmlərin yeni növlərinin yaranması bir qayda olaraq, fəlsəfi tədqiqatlar zamanı aşkar olunmur, bu filosofun gündəlik işi deyil».[11]

İlham Məmmədzadə bu mənada haqlı olaraq yazır: "Fəlsəfə, əlbəttə ki, elmdir, lakin dünyaya özünəməxsus idraki, tarixi və şəxsi münasibəti ilə fərqlənən spesifik elmdir. O, təbii elmlərlə, uzun müddət ən vacib sayılan xüsusi bağlarla əlaqəlidir"[12]

Artıq V.Vernadskinin bu ideya şəraiti kəskin şəkildə dəyişmiş və bizi əhatə edən geoloji qüvvələrin hərəkətini daha çox və daha aydın görürük. Təsadüfi deyil ki, elmi şüurda, fəlsəfi məntiqdə insanın geoloji əhəmiyyətinin mövcudluğu haqqında ideyaların yaranması və biosferin yeni vəziyyətinin aşkar olunması onun təzahür formalarından biridir. Bu hər şeydən əvvəl sosial-fəlsəfədə biosferin müasir vəziyyəti haqqında elmi işlərin dəqiqləşdirilməsi və insanın biosferdəki fəaliyyətinin oynadığı rolun dərin mahiyyətinin açıqlanması ilə əlaqədardır.

Bu yarımfəsildə daha sonra qeyd edilir ki, müasiri olduğu təbiətşünaslığı dünyanın inkişafına tətbiq edən ilk filosoflardan biri də İ.Kant olmuşdur. Onun öz əsərlərində Buffona, Bonneyə dönə-dönə müraciət etməsi sübut edir ki, İ.Kant təbiətşünaslıq haqqında dərin biliklərə malik olmuşdur. Kant ən çox Leybnist və Lessinqin əsərlərinin təsiri altında olmuşdur. Canlı və bitki aləminin təkamülünün etiraf edilməsi Kant üçün onun kosmoqonik hipotezinin məntiqi tamamlanması hesab oluna bilər. Kant inkişaf ideyasına ən ümumi prinsip kimi baxmışdır. Öz dövründəki, bioloji biliklər onun konsepsiyasının doğruluğuna inandırıcı sübutlar verə bilmirdi. Bununla yanaşı, onun canlı təbiətə əsasən çıxardığı

---

[10] Ramiz Mehdiyev. Fəlsəfə. Dərs vəsaiti, B.: 2010, s. 37.
[11] Вернадский В. И. Философские мысли натуралиста. М.: Наука, 1988, 119 с.
[12] İlham Məmmədzadə. Bir daha fəlsəfə haqqında. B.:2012, s.7.

nəticələr bioloqların ağlında təkamül ideyasının hakim kəsilməsinə kömək etmişdir. Kant təbiətin maddi izahının verilməsini zəruri hesab etmişdir.

Tədqiqatda göstərilir ki, cansız aləmin canlı orqanizmlər vasitəsilə keyfiyyətcə dəyişməsi həyatın daha əlverişli istiqamətində inkişaf edir. Canlı və cansız aləmin konkret şəraitdə balanslaşması olsa da, canlı aləmin cansız aləmə nüfuzu artır, beləliklə biosferin sərhədləri böyüyürək hələlik sonu bilinməyən istiqamətdə inkişaf edir. Artıq kosmosun tədqiqi, hətta NASA tərəfindən 2018-ci ildə nəzərdə tutulan ilk tədqiqat gəmisinin Mars planetinə göndəriləcəyi ilə bağlı məsələlər qeyd olunanlara əyani sübutdur.

Bu yarımfəsildə belə bir nəticəyə gəlinir ki, ümumiyyətlə, canlı materiya üçün ümumi olan hadisədə biz hətta cansız təbiət maddələrində müşahidə olunmayan plastik təkamül prosesini müşahidə edirik. Tədricən canlı və cansız aləmin qarşılıqlı əlaqəsi, canlı orqanizmlərin sistemə təsirinin bərpa olunan xarakter daşıması, onların biosferə fiziki, kimyəvi və geoloji təsirləri ideyası alimlərin təfəkküründə və fəaliyyətində onların konkret tədqiqatlarında əsas yer tutmağa başladı.

**“Biosfer dəyişiklərində antropogen amilin fəlsəfi mahiyyəti”** adlı fəsil bütövlükdə biosfer dəyişiklərində antropogen mahiyyətin açılmasına, biosferdən-noosferə keçidə və təbiət-cəmiyyət sisteminin perspektivlərinin fəlsəfi mahiyyətinin açılmasına həsr olunmuşdur.

Həmin fəslin **“Biosferdə antropogen amil, onun məzmun və mahiyyəti”** adlı birinci yarımfəslində göstərilir ki, bəşəriyyət üzərində yaşadığı təbiətlə uzun və gərgin bir mübarizə dövrü keçmiş, nəhayət müasir dövrdə insan öz həyatı və mədəniyyəti ilə bütün biosferi, planetin həyatla əlaqəsi olan bütün ərazisini əhatə etmişdir. Biosfer və insan münasibətinin inkişaf dinamikasına nəzər saldıqda ilkin mərhələdə insanın biosferdən tam asılı olduğu halda, XXI yüzillikdə isə əks bir prosesin-biosferin biomüxtəlifliyinin insandan asılı olması faktını müşahidə edirik. Məhz bu baxımdan insanın təbiətlə ilk əlaqədə olduğu dövrdən yaşadığımız dövrə qədər keçib gəldiyi inkişaf dövrünü fəlsəfi aspektdə təhlil etmək zərurəti ortaya çıxır. Onda belə bir şəraitdə də aşağıdakı fəlsəfi suallar qaçılmaz fakta çevrilir: biosferə qarşı sosial qüvvə kimi dayanan insan kimdir, onun bioloji sistem içərisində tarixi yeri haradadır; insan canlı bir varlıq olaraq, biosfer daxilində adi komponentdən ona qarşı çıxan geoloji qüvvəyə necə çevrilmişdir; insanın idraki fəaliyyəti təbiətin ona təsir halqalarını qıraraq, təbiəti öz təsir altına necə sala bilmişdir; biosferə qarşı təsirlərin kosmik və planetar xarakter alması gələcək canlı aləmin yaşamasına əngəl olan yeni

meqa qüvvənin yaranması deyilmi və s. kimi problemlərin ortaya çıxması qeyd olunan suallara cavablar axtarır.

Müəllif bu suallara (sosial-fəlsəfi nəzəriyyələri əsas tutaraq) izah vermədən öncə, insan haqqında yaranmış hipotez və nəzəriyyələrin mahiyyətindən doğan, insanın biosferlə əlaqə tərəflərində olan bəzi məqamlara nəzər yetirir. Nəzərə yetirək ki, insanın mənşəyi haqqında müxtəlif dövrlərdə formalaşan təsəvvürlər və irrasionalist baxışların təsiri altında, materialist konsepsiyaların hakim mövqeyə yüksəlməsinə qədər hökmranlıq etmişdir. Tədqiqatda qeyd edilir ki, irrasionalist konsepsiyaların insanın müəyyən cəhətlərini əsaslandırmağa imkanı çatsa belə, məntiqi şəkildə işlənilmiş nəzəriyyələr deyil və insanın mənşəyi haqqında məlum dini ideyalardan başqa digər hipotezlər belə deyə bilmir.

İşdə verilir ki, biosferdə maddələr dövranını yaradan qanuna-uyğunluqların mövcudluğundan doğan bioloji cəhət, insanın varlığı üçün də ilkin şərt olarmuş, onda morfofizioloji, genetik kimi hadisə və prosesləri ifadə etmişdir. Daha sonra göstərilir ki, insanın təbiətə münasibətinin izahı haqqında müxtəlif nəzəriyyələrlə yanaşı, marksist nəzəriyyəsini də qeyd etmək lazımdır. Xüsusən, əzəldən mövcud olmadığı qəti müəyyən edilən insan haradan meydana gəlmişdir sualına, müxtəlif nəzəri yanaşmalarla yanaşı materialist nəzəriyyə müəyyən orjinallıgı ilə fərqlənir və bu disertasiya işində də öz əksini tapir.

Dissertasiyada göstərilir ki, insanın genezisi, onun biosferdə inkişafı və əlaqə qanunauyğunluqları haqqında elmdə o vaxt yeni üfüqlər açıla bilər ki, bu məsələ ilə əlqadar mövcud olan dünyabaxışlarını müqayisəli şəkildə təhlil edib orada olan qüsurlar göstərilə bilsin. Məhz bu baxımdan tədqiqat işində qeyd edilir ki, biosferlə insan arasında yaranmış dərin zidiyyətlərin kökünün təkcə insanların öz məqsədlərinin reallaşması üçün əldə etdiyi çoxsaylı əmək alətlərində deyil, insanın öz mahiyyətində axtarmaq lazımdır. Burada bir həqiqət var ki, biosferin bir hissəsi olan insan öz müxtəlifliyi ilə onun hissi həyatını müəyyənləşdirən təbiət qanunları əsasında formalaşmışdır. Biosfer nəinki insandan kənarda, eyni zamanda insanın özündə mövcuddur.

Daha sonra işdə vurğulanır ki, insanın biosferdəki tarixən inkişafı maddi istehsal münasibətlərində ifadə olunur. Elə burada da biosferlə cəmiyyət arasındakı ziddiyyətlər daha qabarıq şəkildə üzə çıxır. Dissertant tədqiqat işində göstərir ki, məhz bu baxımdan iki yanaşma xətti ortaya çıxır: onlardan birincisi, biosferlə əlaqə münasibətlərində bütün günahları insanın özündə axtaran dünyagörüşü, ikincisi isə bütün günahları biosferin

biomüxtəlifliyinin azalmasında (yəni təbiətin fiziki proseslərinin qeyri-müəyyən gedişi) görən nöqteyi nəzərdir. Əlbəttə, burada biosferdə günah axtaranların mövqeyindəki qeyri elmi əsaslandırmalar belə bir məntiqi müqayisə aparmağa imkan verir ki, «əlinə balta alıb meşədəki ağacları doğrayan «təbiət cəlladı» əvəzinə, günah özünün doğranmasını məmnuniyyətlə qəbul edən ağacda axtarılsın». Aydındır ki, ikinci nöqteyi nəzərin yuxarıda qeyd olunan müqayisədə necə qeyri elmi yanaşma olduğu üzə çıxır.

Bu yarımfəsildə qeyd olunur ki, əslində insanı dünyanın mərkəzinə qoyaraq tədqiqatda birinciliyi antropogen amillərlə vermək yeni deyildir. Ona görə insanla biosferin qarşılıqlı münasibəti məsələsinə təbii, tarixi-fəlsəfi aspektdən yanaşılması vacibdir. Aydınlaşdırılır ki, fəlsəfə biosferin vəziyyətinin təhlili baxımından başqa elmlərlə müqayisədə daha universal imkanlara malik olduğuna görə, onun bəşəriyyətə verə biləcəyi mesajlar orijinallığı ilə daha məqbul ola bilər.

İkinci fəslin **“Biosferdən noosferə keçid, təbiət-cəmiyyət sisteminin gələcəyi, reallıq və perspektivlərə fəlsəfi yanaşma”** adlı ikinci yarımfəslində bildirilir ki, qanunauyğun olaraq, düşünülmüş şəkildə gələcəyin indiyə təsirini hiss edirik. Müəyyən tədqiqatçıların fikrincə, «noosfer» artıq biosferdən fərqlənən sərbəst qatdır. Digərləri hesab edir ki, noosfer yerin gələcək qatıdır. Üçüncülər isə bu termindən, ümumiyyətlə imtina edirlər. Bir çox elm adamları insan yaşayan sahəni: «antroposfera» adlandırmağı daha düzgün hesab edirlər. Texnikanın dəyişdirdiyi sahə isə «texnosfera» adlandırılır. Bir çox müəlliflər iddia edir ki, öz həcmi anlayışına görə «texnosfera» «noosferadan» daha geniş anlayışdır. Belə ki, «texnosfera» texnikanın nüfuz etdiyi hər yeri, hətta bütün texnogen dəyişik-lik olan sahələri əhatə edir. Məsələn, «texnosfera» insanların tam nəzarətində olan, lakin məskunlaşmadığı atmosfera və hidrosferanı da əhatə edir. Lakin nəzərə almalıyıq ki, noosfer ağılın, insan zəkasının yaratdığı təbəqə kimi meydana çıxır. Məhz bu baxımdan texnika-texnosferanı, sosial həyat-sososferanı, insan isə antroposferanı yaradırsa, noosferi yaradan insan zəkası olmadan bu anlayışların arxasında duran proses təbiətdə nə isə dəyişdirmək imkanından xaric olardı. Bu isə o deməkdir ki, noosfer qeyd olunan anlayışlardan daha dərin məzmuna malikdir. İnsanlığın əmələ gəlməsi biosferə yeni keyfiyyətlər gətirmişdir. Müəllif işdə göstərir ki, müasir insanın fəaliyyəti biosferdə öz xüsusiyyətinə görə getdikcə daha aktiv rola malikdir və burada iki müxtəlif prosesi izləmək mümkündür;

insanın biosferdə təbii-tarixi əlaqələrdən tədricən uzaqlaşması; insanın elmi fəaliyyəti nəticəsində yaratdığı yeni süni təbəqəyə-noosferə yaxınlaşması.

Daha sonra göstərilir ki, biosferin bəşəriyyətin tarixindəki rolunu, noosferi yaradan insanın biosferdəki tarixi fəaliyyətinin dərin mahiyyətini anlamadan, təkamülün bu cür gedişində yaradılan süni əngəlləri aradan qaldırmaq qeyri mümkün görünür. Məhz bu baxımdan bəşəriyyətin yaratdığı noosferin yeni mahiyyətinin dərk olunması vəziyyətin çıxış nöqtəsi ola bilər. Noosfer mərhələsinə keçən insan və bəşər həyatı, onun canlı materiyanın qanunauyğun bir hissəsi, həmçinin, mütəşəkkilliyinin bir hissəsi kimi təzahür edir. Buna görə insan cəmiyyətini əhatə edən biosfer durmadan dəyişilir və yeni xüsusiyyətlər qazanaraq noosferə keçir.

Bu yarımfəsildə daha sonra təhlil olunur ki, noosferdə enerji və material mübadiləsi nəticəsində nəinki orqanizmlər, həm də ətraf, abiotik mühit dəyişilir. Hava, yerin səthi və sular orqanizmlərin təsirindən yeni xassə kəsb edib biogen mühit olurlar. Yəni cansız təbiətin kimyəvi tərkibi dəyişilir, ondakı fiziki və kimyəvi proseslər başqa qanunauyğunluqlarla gedir, bu da nəticədə canlıların dəyişməsinə səbəb olur ki, dissertant bu kumi məsələlərin öyrənilməsinin fəlsəfi izahını göstərmişdir.

Yarımfəslin yekununda da nəzərə çatdırılır ki, noosferin inkişafı və onun yeni sistem halında mövcud olmasını şərtləndirən mühüm amil sosial-iqtisadi hadisələrin ictimai qanunauyğunluğudur. Noosferin texniki və sosial əsasları insanların noosferə keçidindən əvvəl yaranır. Cəmiyyətin biosferə təsiri o qədər böyükdür ki, onun qarşısındakı təbii faktorlar çox cüzi görünür. Elmi fikrin multidistiplinar əlaqə olmadan bir istiqamətli gedişi, bu günə qədər kifayət qədər öyrənilməmiş, nəticədə biosferin təbii inkişafına təsir edən yeni bir hadisənin meydana gəlməsi kimi xarakterizə olunur. İnsanın şüurlu şəkildə biosferdə yaratdığı proseslərin gedişindəki süni təbiət hadisəsi, elmi fikrin şüurlu şəkildə yaratdığı yeni geoloji vəziyyət kimi xarakterizə olunmalıdır. Nəticədə biosferdə yeni vəziyyətin formalaşması, bir sözlə noosferin yaranması baş verir.

Dissertasiyanın üçüncü fəsli **"Qloballaşma və onun biosferdə yaratdığı proseslərin fəlsəfi təhlili"** adlanır. Fəsildə qloballaşma, biosferin qarşılıqlı dinamikası və müasir dövrdə ölkəmizdə ekologiyanın, biosferin qorunmasında bioetik dəyərlərin rolu məsələləri sosial-fəlsəfi aspektdə təhlil edilir.

Üçüncü fəslin **"Qloballaşma və biosferin qarşılıqlı əlaqəsinin təsir dinamikasının xüsusiyyətləri"** adlı birinci yarımfəslində göstərilir ki, bəşəriyyətin həyatı öz müxtəlifliyi ilə bölünməz və təkdir. Dünyanın

istənilən coğrafi nöqtəsində baş verən hadisələr az və ya çox dərəcədə başqa yerlərdə, yer səthinin hər yerində əks olunmuş və iz buraxmışdır. İnternet, telefon, kosmik nailiyyətlər bütün Yer kürəsini əhatə etmişdir. Əlaqələr daha sadə şəkildə və daha tez yaranır. Hər gün onların inkişafı artır və çiçəklənir. Açıq-aydın görünür ki, qloballaşmanı yaradan yeni hadisələrin başlanğıcındayıq və bunu bəşəriyyət tarixində baş verən təsadüflər dayandıra bilməz. Bu proses biosferdə insanların tamamilə məskunlaşması və elmi ideyaların məhsulu olan noosferdə fikirlərin ani ötürülməsi imkanları, eyni zamanda onun bütün planetdə müzakirə imkanları ilə qırılmaz surətdə bağlıdır. Hazırda vəziyyətin gərginliyi və gələcək insan nəslinin böyük təhlükə altında olması artıq heç kimdə şübhə doğurmur.

Müəllif qeyd edir ki, bəşəriyyəti təmsil edən hər bir fərdin xoşbəxtliyinin təminatını yaşadığı lokal məkanda deyil, qlobal proseslərin mahiyyətində axtarmaq lazımdır. Bir çox müəlliflərin qloballaşmnı yaradan prosesə, dövlətlərin və cəmiyyətlərin problemi kimi yanaşmaları dünya ictimaiyyətinin diqqətini məsələnin mahiyyətindən uzaqlaşdırır. Belə olduğu təqdirdə bəs görəsən qloballaşma özü problemdir, yoxsa makro problemlərin həllinə olan münasibət qloballaşmadır, bu sualdan çıxan nəticələri müəllif işdə sosial-fəlsəfi aspektdən işıqlandırmağa çalışır.

Müəllif Ramiz Mehdiyevə istinadən göstərir ki: “İnsan fəaliyyətinin bütün sahələrinin ekoloji etika tələblərinə tabe edilməli olması, humanizmin prinsipləri təkcə insana və bəşər cəmiyyətinə deyil, həm də təbiətlə qarşılıqlı münasibətinə də şamil edilməlidir”[13].

İşdə qeyd olunur ki, məhz bu baxımdan insanı dəyişdirə biləcək yeni humanizm prinsiplərinə söykənən bioetik dəyərlər yaradılmalı, bu dəyərlər insanın biosferə münasibətində inqilabi xarakter daşımalıdır. İnsan nəslinin keyfiyyət və qabiliyyətlərini əsaslı şəkildə yaxşılığa doğru dəyişdirmək lazımdır. Yeni dəyərlərin başlıca keyfiyyətləri qloballıq hissi, təbii mühitə məhəbbət və biosferin məhvinə qarşı dözümsüzlüyün formalaşmasından ibarət olmalıdır. Müasir insan yeni texnogen faktorun yaradılmasında biosferə qarşı xüsusi məqsədi olmadan belə mövcuddur və bu prosesdə aktiv iştirak edir. Bu texnoloji faktor elmi cəhətdən bəşəriyyətin inkişafının müxtəlif mərhələsində tətbiq olunmağa başlasa da, bizim yaşadığımız hal-hazırki dövrdə sürətli inkişafı aydın şəkildə üzə çıxır.

---

[13] Ramiz Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B.: 2005, s.137.

Yarımfəsildə göstərilir ki, qloballaşma siyasi və iqtisadi proseslərin nəticəsi olaraq deyil, tarixi obyektiv reallıq olaraq özünü göstərməkdədir. Qeyd olunan reallığı yaradan müxtəlif səbəbləri göstərməklə qloballaşmanı yaradan tarixi şərtləri müəyyənləşdirmək olar: Yer kürəsinin sonsuz olmasının mifoloji təsəvvürlərdə deyildiyindən fərqli olaraq, müəyyən hüdudlar daxilində məhdud və qapalılığının bəşəriyyət tərəfindən dərk olunması; müasir dövrə qədər müharibələrin əksəriyyətinin baş verməsinin yeni coğrafi ərazilərə sahib olma səbəbləri ilə birbaşa əlaqəli olması; yeraltı və yerüstü təbii ehtiyatların Yer kürəsində coğrafi bölgələr üzrə qeyri müəyyən paylanması və tükənməsinin dərk olunması; hər bir fərdin yaşadığı və gördüyü coğrafi mühitdən fərqli olan yeni əraziləri görməyə davamlı olaraq can atması; əhalinin sürətlə artması müqabilində Yer kürəsinin su və quru ərazisində heç bir artımın baş verməməsi.

Bu yarımfəsildə göstərilir ki, bəşəriyyətin tarixi inkişaf yolunda biosferin bütövlükdə əhatələnməsi üçün edilən davamlı, hər tərəfli cəhdlər, canlı aləmin yeganə sosial növü olan insan tərəfindən demək olar ki, başa çatdırılmışdır. XXI əsrdə dünyada insanın nəzarətində olmayan kiçik bir ərazi belə tapmaq mümkün deyildir. XXI əsr həm də bəşəriyyət üçün içməli su böhranı ilə xarakterizə olunur. Bəşəriyyət qlobal istiləşmə ilə bağlı olaraq, içməli su çatışmazlığının son həddinə yaxınlaşmışdır. Digər bir tərəfdən tədqiqatda insanın biosferin daxili komponenti kimi inkişafı və bu inkişafın nəticəsi olaraq böyük geoloji məna daşıyan yeni süni təbiət hadisəsinin yaranması artıq aydındır. Belə faktların müasir dövrdə qloballaşmanın xüsusiyyətləri kimi nəzərə alınması məsələləri sosial-fəlsəfi aspekdə təhlilə cəlb olunmuşdur.

**“Qloballaşma şəraitində Azərbaycanın ekoloji inkişafı və Ermənistanın işğal altında saxladığı ərazilərdə ekosid siyasətinin fəlsəfi təhlili”-** üçüncü fəslin ikinci yarımfəsli belə adlanır. Burada göstərilir ki, bəşəriyyətin inkişaf tarixində qloballaşmanı yaradan amillər indiki qədər güclü təsirə malik olmayıb. Hazırki dövr qloballaşmanın inkişafında müasir şərait özündən əvvəlki mərhələlərlə müqayisədə keyfiyyət baxımından daha elastik məzmuna malikdir. Belə ki, qloballaşmanı yaradan mexanizmlər və onları həyata keçirmək üçün düşünülən alətlər çoxluğu qloballaşma şəraitini yeni mərhələyə keçirir. Məhz bu baxımdan müxtəlif sahələrdə yaradılan beynəlxalq təşkilatların çoxluğu “qloballaşma şəraitinin” əsasını təşkil edir. Bu gün bəşəriyyət qarşısında duran qlobal problemlər artdıqca

onların yeni tərzdə qavranılması və həlli yollarının tapılması da mürəkkəbləşir. Planetin hər hansı bir nöqtəsində baş verən ekoloji və qlobal problemlərin yaratdığı təhlükələrin insanlar tərəfindən eyni cür qavranılması üçün atılan addımlar qloballaşma şəraitini yaradan ən mühüm amillər kimi işdə təhlil olunur.

Yarımfəsildə açıqlanır ki, əvvəllər təbiətə qarşı mübarizə aparmadan biosfer və ətraf mühitlə harmoniyada yaşaya bilən insan tələbat və maraqlarının çoxistiqamətli inkişafı baxımından yeni bir mərhələyə qədəm qoymuşdur. Bəşəriyyətin qloballaşmaya olan münasibətində qloballaşma əleyhdarları və tərəfdarları arasında hamı tərəfindən eyni cür qəbul olunan ideya biosferə olan münasibət kimi işdə təhlil olunur.

Tədqiqatda qeyd edilir ki, bioresursların bərpası və ekoloji problemlərin həlli məqsədi ilə həyata keçirilən tədbirlər Azərbaycanın «işğal olunmuş ərazilərini» əhatə edə bilmir. Məhz bu baxımdan «işğal olunmuş ərazilərdə» ekoloji böhran getdikcə dərinləşir və biosferin biomüxtəlifliyini təşkil edən müxtəlif təbii landşaftların məhv olması təhlükəsi yaranır. Bu kimi məsələlər də işdə təhlil olunaraq, problemə "işğalçı dövlətin" məhz öz tədqiqatçısının qeydi ilə cavab verilir.

Belə ki, Ermənistanda ekoloji araşdırmalarla məşğul olan Levon Qalstyan «İşğal altında olan Ağdərə rayonunda, Tər-tər çayı üzərində yerləşən Sərsəng su anbarında balıqların çaya atılan kimyəvi maddələr nəticəsində zəhərlənərək kütləvi qırılmasını»[14] yazır.

Buradan belə bir nəticə çıxır ki, müasir dünyanın hər hansı bir hissəsində yaranmış ekoloji vəziyyət bütövlükdə, qlobal miqyasda öyrənilməlidir. Əlbəttə, biosfer təkcə içərisində yaşadığımız məkan deyil, o həm də mövcudluq reallığımızı həyata keçirmək üçün çoxsaylı səbəblərin ən mühüm şərtidir.

Bizi əhatə edən biosferin tamlığını təşkil edən canlı varlıqlar mövcud olmanın əsasında dayanan qida zəncirinin əsas halqalarını təşkil edirlər. Məhz bu baxımdan lokal ərazilərdə vahid bir ekosistemin məhv edilməsi biosferdə gedən qlobal dövranın həyat ritmini pozur, nəticədə bəşəriyyət təhlükələrlə yüklənmiş yeni prosesin baş verə biləcəyi amillərin seyrçiləri olur. Məsələn, Azərbaycan ərazisi olan Dağlıq Qarabağın meşə fondu məhv edilmiş ərazilərin ümumi miqyasını və onun indiki mənzərəsini analiz edərkən çoxunun yaddan çıxardığı mühüm bir qanun- «təbiəti təşkil edən maddələrin əlaqə qanunu» bizə prosesin daha da

---

[14] www.armtoday/info

fəlakətli bir nöqtəyə gəldiyini göstərir. Tədqiqat işində bu kimi məsələlər dissertant tərəfindən açıqlanaraq problemin sosial səbəbləri göstərilir.

Tədqiqat işinin **"Nəticə"** hissəsində göstərilir ki, bəşəriyyət postindustrial mərhələnin ilk pilləsindədir və belə bir şəraitdə biosferin imkanlarının məhdudluğu bugünkü insan nəslinin qarşısında yeni vəzifələr qoyur ki, bu da tədqiqatda sosial-fəlsəfi aspektdən müəyyən dərəcədə öyrənilmiş, yekunda təklif və tövsiyələr verilmişdir.

**Dissertasiyanın əsas məzmunu ölkədə və xaricdə dərc olunmuş aşağıdakı elmi məqalə və məruzələrdə öz əksini tapmışdır:**

1. Biosferin inkişafının əsas qanunauyğunluqları. AMEA-nın Folklor İnstitutu, Elmi Axtarışlar, 26-cı buraxılış, Bakı: Səda, 2006, s. 280-284.
2. Biosfer, cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsi. BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, I buraxılış, Bakı: Mütərcim, 2007, s. 238-242.
3. Elmi fikir və elmi iş biosferdə geoloji güc kimi. BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, IV buraxılış, Bakı: Mütərcim, 2008, s. 209- 218.
4. Cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsinin spesifikası, biosferin təbii imkanlarının məhdudluğu. BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, VI buraxılış, Bakı: Mütərcim, 2008, s.302-308.
5. XX əsrdə elmi şüurun inkişafı və onun biosferin geoloji tarixində rolu. BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, V buraxılış, Bakı: Mütərcim, 2008, s. 385-393.
6. Biosferin dinamikasında insan amili. AMEA -nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Fəlsəfə jurnalı, XIII buraxılış, Bakı: Təknur, 2009, s. 57-63.
7. Этапы развития антропогенного влияния. Вопросы гуманитарных наук. Москва:Компания Спутник, 44- й выпуск. 2009, с.130-134.
8. Bəşər sivilizasiyasının biosferə təsiri haqqında. BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, V buraxılış Bakı: Mütərcim, 2009, s. 272-279.
9. Elm və innovasiya texnologiyalarının inkişafında beynəlxalq inteqrasiya potensialının rolu. AMEA-nın Elmi nnovasiyalar Mərkəzi, Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzi, Elmi və texnoloji innovasiyalar: milli təcrübə və beynəlxalq əməkdaşlıq mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfransın materialları, Bakı: Elm, 2010, s. 177-179.

10. Qloballaşma şəraitində innovasiya texnologiyalarının biosferə təsiri. AMEA-nın İqtisadiyyat İnstitutu, İnnovasiyalı inkişafın sosial-iqtisadi problemləri mövzusunda keçirilmiş beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı: Avropa, 2010, s. 87- 90.
11. Влияние человеческой культуры на биосферу в середине века и современное время. Журнал Федерация, выпуск 3, Москва: Компания Спутник, 2010, с. 43-48.
12. Qloballaşma və innovasiya texnologiyalarının müasir elmin inkişafında rolu. Bakı Avrasiya Universiteti, Qloballaşma şəraitində humanitar elmlərin aktual problemləri mövzusunda keçirilmiş Respublika elmi-praktik konfransın materialları, Bakı: Araz nəşriyyatı, 2011, s. 68-70.
13. Qloballaşma və biosfer. Azərbaycan Universiteti, Azərbaycan inkişaf etmiş cəmiyyətə doğru: reallıqlar, perspektivlər mövzusunda Gənc tədqiqatçıların 2 fevral-Gənclər gününə həsr edilmiş ümumrespublika elmi-praktik konfransın materialları, Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2011, s. 151-154.
14. Dağlıq Qarabağın işğal olunmuş ərazilərində biosferin biomüxtəlifliyinin məhv olma səbəblərinin sosial-fəlsəfi təhlili. "Qarabağ dünən bu gün və sabah" mövzusunda keçirilən 10-cu elmi-əməli konfransının materialları toplusu. Bakı: Namiq Həbibov mətbəəsi, 2011, s. 133-138.
15. Biosferin tarixi təkamül prosesinə fəlsəfi baxış. AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Elmi əsərlər, 16-cı buraxılış, Bakı: İnformasiya və nəşriyyat, 2011, s. 118-123.
16. Qlobal antropogen amillərin noosferdə baş verən təbii proseslərə təsiri aspektlərinin sosial-fəlsəfi təhlili. Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Universiteti, Davamlı inkişafın aktual problemləri mövzusunda Ümummilli lider H. Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr edilmiş beynəlxalq konfransın materialları, Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 2011, s. 400-403.
17. İnsanın inkişaf tarixində biosferə təsir imkanları. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümünə həsr olunmuş "Gənc alimlərin I elm festivalı" çərçivəsində keçirilmiş elmi konfransların materialları, Bakı: Elm və Təhsil, 2011, s. 362-365.
18. Qloballaşma şəraitində innovasiya texnologiyalarının biosferə təsiri. AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Qloballaşma və informasiya cəmiyyətinin problemləri (elmi məqalələr toplusu), 1-ci buraxılış Bakı: Təknur, 2011, s. 156-161.

19. Qloballaşma və onun yaratdığı sosio-mədəni reallıqlar (sosial-fəlsəfi kontekstdə təhlil. 2012-ci ildə ADMİU-nun 90 illik yubileyinə həsr olunmuş “Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf” mövzusunda keçirilən beynəlxalq elmi konfransın materialları. 21-22 dekabr 2012, Bakı: Təknur, 2012, s. 82-85.
20. Davamlı inkişafın Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji təhlili. Mədəniyyət və Turizm nazirliyinin "Davamlı inkişaf mədəniyyəti formalaşma problemləri və perspektivləri" mövzusuna həsr olunmuş beynəlxalq elmi konfransın materialları, Bakı:Elmi metodiki mərkəz, 2012, s.101-105.
21. Роль биоетики в охране биосферы: социально-философский анализ. Национальный Педогогичний Университет имени М.П.Драгманова. выпуск 58 (№3), Гилея, Киев: 2012, с. 388-393.
22. Екологические реалии в регионе Метсаморской АЕС. Национальный Педогогичний Университет имени М.П.Драгманова. выпуск 74 (№7), Гилея, Киев: 2013, с. 343-345.
23. Роль географической среды в развитии глобализации Международной заочно научно- практической конференции, научная дискуссия: вопросы социологии, политологии, философии, истории. Москва: 2014 г. 51-57 с
24. Biosferdən noosferə keçid, təbiət-cəmiyyət sisteminin gələcəyi, reallıq və problemlər. AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu. Elmi Əsərlər. Bakı:2014, s. 68-73.
25. İşğal olunmuş (Dağlıq Qarabağ və ətraf) ərazilərin ekoloji vəziyyəti və biosfer. “Qarabağ bu gün və sabah” mövzusuna həsr olunmuş XXIII-Elmi əməli konfransın materialları, Bakı:2014, s. 141-147.

Магомед Солтан оглу Джабраилов

**Роль и место человека в динамике биосферных процессов (социально-философский анализ)**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, трех глав, шести параграфов, заключения и списка литературы.

Во введении говорится об актуальности темы, обосновываются ее цель и задачи, показана научная новизна работы и ее практическое значение.

Первая глава называется «Основные особенности проявления биосферы как единого процесса в природо общественной системе». В этой главе раскрывается содержание понятия биосфера, в социально-философском аспекте рассматривается сущность происходящих в ней физических и биологических процессов. Предпринимается попытка проанализировать основные закономерности в развитии биосферы и показать социально-философскую сущность понятия биосфера. При определении биосферы рассматриваются связи и особенности живых существ, являющихся участниками процесса, выражающегося в понятии биосфера.

Развитие живого мира, связи в отношениях между человеком и биосферой, а также другие стороны процесса в этой главе рассматриваются как насущные проблемы философии.

Вторая глава называется «Философская сущность фактора антропогенности в изменениях биосферы». В этой главе раскрываются влияние, содержание и сущность антропогенного фактора в биосфере. Анализируются проявления перехода от биосферы к ноосфере и выдвигаются некоторые мысли о современных реалиях системы природа – общество. Эта глава целиком посвящена раскрытию антропогенной сущности в изменениях биосферы, переходу от биосферы к ноосфере и перспективам системы природа – общество. В данной главе диссертационной работы обращается внимание на возникающие вопросы, исходящие из природы сущности человека, а также на некоторые моменты, возникающие вследствие связи человека с биосферой.

Третья глава называется «Особенности динамики влияния взаимосвязи глобализации и биосферы». В этой главе широко исследуются вопросы глобализации, взаимная динамика биосферы и роль биотических ценностей в сохранении биосферы, экологии нашей страны в современный период. Будучи исторически объективным процессом, глобализация здесь рассматривается как отношение человека к окружающему миру. Отмечаются последствия экологического ущерба, нанесенного Азербайджану экоцидной политикой

Армении. По выполнению задач, выдвинутых экологическими конвенциями, к которым присоединился Азербайджан, он оценивается как страна «Экомодель».

В заключении приводятся выводы, предложения и рекомендации.

**Mahammad Soltan oglu Jabrayilov**

**Human's situation and role in the dynamics of the processes of the biosphere**

## SUMMARY

The dissertation work consists of three chapters, six paragraphs, conclusion and literary sources. In the introduction have been grounded the topicality, goals and duties of the subject and shown the scientific innovation, practical significance of the work.

The first chapter is called "The main features of the appearance of the biosphere in the system of the nature-society as a sole process". The meaning of the biosphere notion, the essence of the physical and biological processes has been analyzed from the social-philosophical aspect in this chapter. We tried to interpret the main objective laws in the development of the biosphere and social-philosophical essence of the biosphere notion. The relationship and quality properties of the living substances which are members of the biosphere process have been looked through giving the definition of the biosphere. The development of the organic world, existing connections between biosphere and human relationship and their invisible sides have been analyzed as an important problem of the philosophy in this chapter.

The second chapter is called "The philosophical essence of the anthropogenic factor in the changes of the biosphere". Here has been explained the influences of the anthropogenic factor in the biosphere and its meaning, essence. The appearance of the transition from the biosphere to noosphere has been analyzed and some ideas about the modern realities of the nature-society system advanced in this chapter. This chapter completely devoted to the revealing of the anthropogenic essence in the changes of the biosphere, transition from the biosphere to noosphere and perspectives of the system of the nature-social.

In this chapter of the dissertation work have been looked through different questions connected with the relationship between the human and biosphere.

The third chapter is called "Globalization and its processes occurred in the biosphere". In this chapter have been analyzed the globalization, mutual dynamics of the biosphere and the role of the bioethical values for the protection of the ecology and biosphere in our country. Here, the globalization has been appreciated as a human's attitude to the environment being a historical objective process. Besides, here has been noted the ecological damages inflicted by Armenia on the occupied territories of Azerbaijan as a result of the ecocide policy. Azerbaijan has

been appreciated as a country “Model of Eco” in doing its duties of the ecological conventions that Azerbaijan had joined.

In the conclusion of the dissertation work have been given proposals and recommendations.

НАЦИОНАЛНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА

*На правах рукориси*

**МАГОМЕД СОЛТАН оглу ДЖАБРАИЛОВ**

# РОЛЬ И МЕСТО ЧЕЛОВЕКА В ДИНАМИКЕ БИОСФЕРНЫХ ПРОЦЕССОВ (СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ)

**Специальност: 7207.01-Социальная философия**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по философии**

**БАКУ-2015**